# Azərbaycan mehriban qonşuluq prinsipinə daim sadiqdir

*Ermənistanın ona xoş niyyətlə uzadılan həmrəylik əlini tutmasını, ortaq gələcəyi birlikdə formalaşdırmaq fürsətindən yaxşı istifadə etməsini arzu edirik. Altılı platforma dedik. Bu altılı platformada bildiyiniz kimi, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun.*

**Rəcəb Tayyib ƏRDOĞAN**
**Türkiyə Cümhuriyyətinin Prezidenti**
**Şuşa, 15 iyun 2021-ci il**



*Son vaxtlar Türkiyə – Ermənistan əlaqələrinin normallaşdırılması ilə bağlı verilən ifadələri də biz dəstəkləyirik. Hesab edirik ki, bu, region üçün lazımdır. Yəni artıq bu, müharibənin hər hansı bir riskini aradan götürmək üçün lazımdır. Yəni bizim üçün bu format kifayətdir – Türkiyə – Rusiya – Azərbaycan – Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda, bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Cəbrayıl, 5 oktyabr 2021-ci il**

Bu qısa yazı üçün qardaş ölkələrin hər ikisinin liderinin çıxışlarından iqtibas gətirməyimiz təsadüfi deyil. Burada bir neçə səbəb var. Birinci, göstərməyə çalışırıq ki, hər iki dövlətin başçıları regiona sülh və əmin-amanlıq gətirilməsi üçün özünəməxsus təşəbbüslə çıxış edirlər. İkinci, hər iki dövlət əsrlər boyu ermənilərdən xəyanət, terror və təxribatlar görsə də, indi onların heç biri Ermənistanı bir kənara atmaq istəmir, bu məkrli xalqın qərəzli dövlətinin də iqtisadi dirçəlişinə imkan yaratmaq istəyir. Üçüncü, hər iki dövlət başçısının Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki çıxışlarına istinad edirik ki, bu da ermənilərə nələrinsə xatırladılmasıdır. Siyasi liderlərimizin açıq bəyan etdiyi fikirləri biz iqtibas gətirməklə davam etdiririk.

(ardı 3-cü səhifədə)

# Azərbaycan mehriban qonşuluq prinsipinə daim sadiqdir



(əvvəli 1-ci səhifədə)

## Zurab Kantariya demişdi ki...

... Tbilisidə çoxsaylı heykəllər, büstlər olan geniş parkda bir neçə soydaşımızın da abidəsinin olduğunu bilirdim. Ona görə də bir az həyəcanla, bir az da maraqla bütün heykəllərə baxmağa tələsirdim. Təxminən yaşıdım olan bir gürcü heykəllərin postamentindəki yazıları oxumağıma kömək etdi. Azərbaycanlı olduğumu biləndə dedi ki, mən də bakılıyam. Soruşdum necə yəni bakılısan? Dedi ötən əsrin 70-ci illərinin sonlarında il yarım Bakıdakı Zaqafqaziya Komsomol Məktəbində oxumuşam.

... Gürcü il yarım yaşadığı paytaxtımızı öz Vətəni sayırdı. Zurab Kantariya adlı bu həmsöhbətimin ölkəmiz haqqında çox maraqlı fikirləri var idi. Həmin fikirlərin bir çoxunu "Facebook"da paylaşmışdım: "Ötən əsrdə Heydər Əliyev, bu əsrdə isə İlham Əliyev Azərbaycanı dünyaya mehriban qonşuluq və səmimi dostluq edən ölkə kimi tanıdıb. Ancaq mən bir məsələni də deməliyəm. Belə ki, hər bir dövlətin yeritdiyi siyasət həmin dövlətdən öncə, o ölkədə yaşayan xalqın mənəvi keyfiyyətinin güzgüsüdür. Hansısa dövlətin siyasətində mənfilik varsa, həmin axsaqlığın təməlini mütləq xalqda axtarmaq lazımdır".

Mən bu məqamda Ermənistanın işğalçılıq siyasətini xatırlatmaq istəyəndə Zurab söhbətin konkretləşməsini istəməyərək soruşdu ki, indi kimin heykəlini axtaraq? Hər halda, mənə lazım olan məqamı eşitmişdim.

## Əxlaqa söykənən siyasət

Sonra uzun müddət düşündüm və xatırlamağa çalışdım ki, ulu öndər Heydər Əliyevdən və ya cənab Prezident İlham Əliyevdən bir dəfə də olsun, hansısa xalqa və ya dövlətə qarşı mənfi çalarlı nə isə eşitmişəmmi? Cavab "neqativ"dir: Eşitməmişəm və heç kəs eşitməyib. Əksinə, onların hər ikisi, hətta torpaqlarımızın 20 faizi düşmən tapdağında olanda belə daim sülh, sabitlik, əmin-amanlıq, əməkdaşlıq barədə danışıblar. Bu isə Zurabın dediyi kimi, xalqın milli-mənəvi dəyərlərinin, bir az da dəqiqləşdirsək, əxlaqının göstəricisidir. Ermənistan siyasətçilərinin rəftarında, davranışında, hətta diplomatik fəaliyyətində belə, əxlaqdan əsər-əlamət görə bilmədik.

## Dünya bizim dostluğa sədaqətimizi necə qiymətləndirdi?

Dövlətimizin mehriban qonşuluq, nə səmimi dostluq prinsiplərinə sədaqətinin göstəricisidir ki, Azərbaycan öz haqq işi uğrunda savaşa çıxanda bizi dəstəkləyənlər Ermənistanı dəstəkləyənlərdən dəfələrlə çox idi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmək üçün səsvermələrdə iştirak edəndə dünyanın 155 ölkəsi bizə səs vermişdi. Ermənistan isə yarıyolda qalmışdı. Bu, bizim dostluğa sədaqətimizin yüksək qiymətləndirilməsi deyildimi? Yaxud Qoşulmama Hərəkatına üz olduğumuz zaman, həmin quruma Azərbaycanın sədrliyi dövründə gördüyümüz beynəlxalq dəstək sədaqətimizin təsdiqlənməsi deyildimi?

Azərbaycanın mehriban qonşuluq və səmimi dostluq münasibətlərinin göstəricisi idi ki, NATO və Rusiyanın, eləcə də ABŞ və Rusiyanın ən yüksək səviyyəli hərbi rəhbərləri dəfələrlə Bakıda görüşmüş, müzakirələr aparmışlar. Eləcə də, BMT başda olmaqla dünyanın əksər beynəlxalq təşkilatları öz mühüm tədbirlərini dəfələrlə Bakıda, hətta işğaldan azad edilmiş Şuşada keçiriblər. Bu fakt kiməsə adi və ya sadə görünə bilər. Ancaq bizimlə eyni vaxtda dövlət müstəqilliyinə çatmış ölkələrin heç birində belə görüşlərin keçirilməsi ənənəsi yoxdur.

## Müharibədən sonrakı davranışlarımız elliklə bəyənilir

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəsindən sonra nümayiş etdirdiyi səbir, təmkin və əxlaqa əsaslanan sülh təklifləri isə bütün dünya tərəfindən müsbət qarşılanır. İndi kimsə deyəcək ki, bütün dünya o fikirdə deyil. Çünki Ermənistan hələlik bizimlə razılaşmaq istəmir. Ancaq mənim fikrimcə, bütün dünya bizim sülh təkliflərimizi bəyənir. Çünki Ermənistan özü-özünü mütərəqqi dünyadan təcrid edib. Hətta bu işğalçı ölkəyə dəstək vermək istəyən Paris də bundan sonra müharibə olmasını istəmir. Yəni Azərbaycanın sülh çağırışları elliklə bəyənilir.

## Dövlət başçımız xatırladır ki...

Azərbaycan Prezidenti 44 günlük müharibənin davam etdiyi günlərdə dövri olaraq xalqa müraciət edir, az qala, hər gün dünyanın aparıcı kütləvi informasiya vasitələrinə müsahibələr verirdi. Onun elə bir müsahibəsi və ya müraciəti yoxdur ki, sülhdən, sabitlikdən söz açmasın. Daim deyirdi ki, bizim torpaqlarımızın işğaldan azad edilməsi Cənubi Qafqaza sülh və sabitlik gətirəcək.

Ötən payız Cəbrayılda yerli sakinlərlə görüşdə isə Prezident xatırlatdı ki, biz sülh çağırışlarından geri çəkilməyəcəyik: "Uzun sürən müharibələrin, işğalların və dağıdıcılığın tarixinə nəzər salsanız görərsiniz ki, ... düşmənçilik mərhələsindən sülhə doğru keçid çox sürətlidir. Bu isə bir daha qeyd etmək istəyirəm ki, bizim təkliflərimiz əsasında baş verir. Mən şəxsən bir ildən artıq müddətdir ki, Ermənistanla sülh sazişinin bağlanmasının vacibliyini bəyan edirəm".

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**